# Gənclər dayanıqlı inkişafın təmin olunmasında mühüm rol oynayırlar



❒ ***Azərbaycan tarixi, geostrateji mövqeyi və dinamik inkişafı ilə qlobal arenaya hər zaman mühüm töhfələr verməkdədir. Buna görə də, ölkəmizin dayanıqlı inkişaf məqsədlərinin uğurlu icrasında daim ön sıralarda olması təsadüfi deyil. "Dayanıqlı İnkişaf Məqsədləri" indeksi üzrə göstəricilərə əsasən Azərbaycan 166 ölkə sırasında 54-cü, Cənubi Qafqaz regionunda isə birincidir. BMT-nin İqtisadi və Sosial Şurasının təşkilatçılığı ilə keçirilən Yüksək Səviyyəli Siyasi Forum (YSSF) üçün regionda ilk ölkə olaraq 2017-ci və 2019-cu illərdə iki Könüllü Milli Hesabatını təqdim edən Azərbaycan, artıq növbəti 3-cü hesabatını təhvil verməyə hazırlaşır.***

Bu gün heç kəsin kənarda qalmaması prinsipi ilə 17 məqsəd və 169 hədəfdən ibarət mürəkkəb gündəliyin həyata keçirilməsi üçün cəmiyyətin bütün təbəqələrinin iştirakı, sektorlararası əməkdaşlıq, innovativ yanaşmaya əsaslanan dayanıqlı həll yollarının tətbiqi və sosial qruplar arasında dialoqun təmini labüddür. Dayanıqlılığın təşviqi üçün isə gələcək nəsillərin maraqlarının müdafiəsi, habelə gənclərin qlobal dəyişikliklərə öz töhfəsini verə biləcəyi platformaların mövcudluğu mühümdür.

Qarşıdakı 10 ilin gündəliyi dünyada yoxsulluğun azaldılması, rifahın təşviq olunması, inklüziv və ədalətli təhsilin təminatı, iqtisadiyyatın daha dayanıqlı sütunlar üzərində qurulması, bərabərsizliyə və iqlim dəyişikliyinə qarşı mübarizə və ekosistemlərin qorunmasına aparan iddialı səyləri özündə əks etdirməklə, gənclərin bu proseslərdə fəal iştirakını israrla tövsiyə edir.

Ölkəmizdə gənclərlə iş dövlət siyasətinin mühüm tərkib hissəsini təşkil edir Gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi üçün kifayət qədər geniş platformalar mövcuddur. Son 17 ildə Azərbaycanda gənclər sahəsinə ayrılan vəsait 100 dəfə artırılmış, gənclərin beynəlxalq səviyyələrdə inteqrasiyasının və iştirakçılığının gücləndirilməsini təmin edən yeni fəaliyyət istiqamətləri formalaşdırılmışdır. Ölkəmizdə gənclərin inkişafı ilə əlaqədar reallaşdırılan proseslərə töhfə vermək məqsədi ilə həyata keçirilən layihələr Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti və UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın dəstəyi ilə yeni nəfəs qazanmışdır.

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi və Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının Azərbaycan Nümayəndəliyinin birgə həyata keçirdiyi "Qlobal siyasi müzakirələrdə gənclərin fəal iştirakının dəstəklənməsi üçün yeni platformalar yaradılması" layihəsi çərçivəsində Dayanıqlı İnkişaf Məqsədləri üzrə gənc səfirlərin seçilməsi təşəbbüsü irəli sürülmüşdür. 2018-ci ildə Azərbaycanda və Cənubi Qafqazda ilk dəfə olaraq DİM üzrə 17 gənc səfir seçilmişdir.

2018-2020-ci illər ərzində 17 gənc səfir könüllü əsaslarla Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) Azərbaycanda təbliğinə, DİM-lərə nail olmaq üçün gənclərin iştirakının təşviqinə, yerli, milli və beynəlxalq səviyyələrdə atılan addımlar barədə cəmiyyətin məlumatlandırılması ilə yanaşı, ölkədə bu sahə ilə bağlı təşəbbüslərin həyata keçirilməsinə böyük töhfələr vermişlər. Məhz onların fəaliyyətlərinin nəticəsi olaraq Azərbaycanda yüzlərlə gənc DİM-dən xəbərdar olmuş və qlobal məqsədlər üçün fəaliyyətə başlamışdır.

Təşəbbüsün uğurlu və effektiv nəticələrini nəzərə alaraq, 2021-2023-cü illəri əhatə edəcək növbəti DİM üzrə gənc səfirlərin seçim mərhələsinə başlanılmışdır. Gənc səfirlərin fəaliyyətinin əsas məqsədi Dayanıqlı İnkişaf Məqsədlərini Azərbaycanda təbliğ etmək, DİM-ə nail olmaqda gənclərin iştirakını təşviq etmək, yerli və milli səviyyələrdə atılan addımlar barədə əhalinin məlumatlandırılmasına və milli hesabatların hazırlanmasına öz töhfələrini verməkdir. Əminəm ki, ulu öndər Heydər Əliyevin dövlət gənclər siyasətinin həyata keçirilməsində hər zaman vurğuladığı azərbaycançılıq məfkurəsi bu sahədə də əsas hədəf və fəaliyyət meydanı olacaqdır.

***Məzahir ƏFƏNDİYEV,***
***Azərbaycan Respublikası Milli Məclisinin deputatı***

Xalq qəzeti 2021.- 21 fevral.- S.2.